


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 181 (24.318)

*3 oktyabr 2023-cü il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

Qiyməti 30 qəpik


## Bakı Konqres Mərkəzində 74-cü Beynəlxalq Astronavtika Konqresinin açılış mərasimi keçirilib

### *Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər*

Oktyabrın 2-də Bakı Konqres Mərkəzində 74-cü Beynəlxalq Astronavtika Konqresinin açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev tədbirdə iştirak ediblər.

Əvvəlcə Konqres iştirakçıları ilə birgə foto çəkdirildi.

Açılış mərasimində səhnələşdirilmiş musiqili tamaşa, 1973-cü ildə Bakıda keçirilmiş 24-cü Beynəlxalq Astronavtika Konqresi və Azərbaycan haqqında videoçarxlar nümayiş etdirildi.

Sonra Beynəlxalq Astronavtika Federasiyasının tanıtım videoçarxı təqdim olundu.

Beynəlxalq Astronavtika Federasiyasının prezidenti **Kley Mouri** açılış mərasimində çıxış etdi.

Sonra Çinin Milli Kosmik Stansiyasının astronavtlarının videomüraciəti oldu.

Beynəlxalq Astronavtika Federasiyasının prezidenti Kley Mouri 1973-cü ildə Bakıda keçirilmiş 24-cü Beynəlxalq Astronavtika Konqresində Ulu Öndər Heydər Əliyevin






və Prezident İlham Əliyevin astronavtlarla çəkdirdiyi, kosmosda nümayiş edildikdən sonra geri gətirilən fotoşəkil və digər atributlardan ibarət xatirə hədiyyəsini Prezident İlham Əliyevə təqdim etdi.

Daha sonra Beynəlxalq Kosmik Stansiyanın astronavtlarının videomüraciəti dinlənildi.

Dövlətimizin başçısı Konqresin açılış mərasimində çıxış etdi.

**Prezident İlham Əliyevin çıxışı**

– Beynəlxalq Astronavtika Federasiyasının hörmətli prezidenti.

Hörmətli xanımlar və cənablar.

Əziz qonaqlar.

Azərbaycana, Bakıya xoş gəlmisiniz. Əlli ildən sonra Konqres burada yenidən keçirilir. İlk olaraq Konqresin Azərbaycanda təşkil edilməsi şərəfinə layiq görüldüyümüz üçün Beynəlxalq Astronavtika Federasiyasına dərin minnətdarlığımı bildirmək istəyirəm. Eyni zamanda mütəmadi dəstəyə görə Beynəlxalq Astronavtika Akademiyasına və Kosmos Hüququ üzrə Beynəlxalq İnstitutuna təşəkkür edirəm.

Belə bir mühüm qlobal tədbirə ev sahibliyi etmək bizim üçün şərəfdir. Bu gün burada 100-dən artıq ölkəni təmsil edən 5000-dən çox iştirakçı var. Əminəm ki, qonaqlarımızın Konqresdəki işlərindən əlavə, Azərbaycanı, onun xalqını, tarixini və mədəniyyətini daha yaxından tanımaq imkanı olacaqdır.

Azərbaycan on ildən artıq müddət əvvəl beynəlxalq kosmik ailənin üzvü olub. Bu gün ikisi telekommunikasiya, biri isə Yer səthinin müşahidəsi peykinə malik olaraq biz Azərbaycanda kosmik sənayenin inkişafını davam etdiririk. Onu da bildirim ki, bu üç peyk azərbaycanlı mütəxəssislər tərəfindən idarə olunur və onlar təkcə Azərbaycana deyil, 45-dən artıq ölkəyə xidmət göstərirlər.

Bakıda keçirilən bu Konqres ölkəmizin kosmik sənaye, müasir texnologiya və innovasiya sektorlarının inkişafına və onun müasirləşdirilməsinə mütləq yeni təkan verəcəkdir. Müasirləşdirilmə sözü bizim gələcəklə bağlı baxışımızı, gündəliyimizi və planlarımızı səciyyələndirir.

Müstəqillik dövründə Azərbaycan beynəlxalq ictimaiyyətin fəal üzvünə çevrilib. Bizim siyasətimiz hər zaman aydın, şəffaf və birmənalı olub və dostlar qazanılmasına və əməkdaşlığın gücləndirilməsinə yönəlib. Beynəlxalq ictimaiyyətin fəal üzvü kimi Azərbaycan çoxsaylı siyasi, iqtisadi və regional inkişaf layihələrində iştirak edir. Dördüncü ildir ki, biz BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisata – Qoşulmama Hərəkatına sədrlik edirik və belə bir təşkilata sədrlik etmək şərəfinə biz 120 dövlətin yekdil qərarı ilə layiq görülmüşük. Bu, həqiqətən də, Azərbaycanın geniş beynəlxalq dəstəyə malik olmasının göstəricisidir.

Bununla yanaşı, bizim Avropa institutları ilə də əməkdaşlığımız uğurla inkişaf edir. Azərbaycan Avropa İttifaqının 9 üzvü ilə strateji tərəfdaşlıq haqqında bəyannamə imzalayıb. Bu bizim xarici siyasət gündəliyimizi nümayiş etdirir. Bu, tam açıq gündəlikdir və artıq qeyd etdiyim kimi, əməkdaşlığa və daha geniş regional iştirak və inklüzivliyə yönəlib.

Azərbaycan iki mühüm beynəlxalq təsisatın – İslam Əməkdaşlıq Təşkilatının və Avropa Şurasının üzvüdür. Biz eyni vaxtda hər iki təşkilata üzv olan azsaylı ölkələrdənik və bu iki təşkilatın yüzdən artıq üzvü var. Bu yalnız bizim coğrafiyamız və mədəniyyətimizin deyil, həm də siyasi niyyətlərimizin göstəricisidir. Çünki Azərbaycanın Avropa ilə Asiya arasında yerləşməsi və iki qitəni birləşdirən, təbii olaraq, mədəni, nəqliyyat və hazırda iqtisadi körpü rolunu oynaması bizə regionumuzda geniş beynəlxalq əməkdaşlıq qurmaq imkanı verir.

Hesab edirəm ki, dünyanın hər bir ölkəsi üçün coğrafi yerləşmə böyük əhəmiyyət kəsb edir. Bizim üçün isə coğrafiya fürsət deməkdir. Əsrlərboyu birgə yaşayış və tərəfdaşlıq tarixinə malik qonşularımız ilə yaxşı münasibətlər sayəsində biz coğrafi yerləşməmizi müsbət ssenariyə çevirə bilmişik. Bu gün biz üfüqlərimizi genişləndiririk. Bu mühüm beynəlxalq tədbirin keçirilməsinin bizə həvalə olunmasını ölkəmizə olan etimadın və fəaliyyətimizə dəstəyin göstərici hesab edirik.

Əlbəttə, qitələrarası körpü olmağımız cəmiyyətimizin inkişafında mühüm rol oynamışdır. Azərbaycan əsrlərboyu çoxmədəniyyətli və çoxkonfessiyalı cəmiyyətə malik olub. Otuz ildən artıq müstəqillik dövründə biz həyat tərzimizin bu faktorunu gücləndirmişik. Biz bunu sabitliyin, proqnozlaşdırmanın və Azərbaycanda yaşayan bütün etnik qrupların və bütün dini konfessiyaların dinc birgəyaşayışı üçün əhəmiyyətli faktor hesab edirik. Biz, həqiqətən də, bir ailə kimi yaşayırıq və bir sıra beynəlxalq təşkilatlar bunu qeyd edib və bu onların qərarlarında öz əksini tapıb. BMT Azərbaycanın multikulturalizmin təşviqi sahəsindəki səylərini tam dəstəkləyir. Yeri gəlmişkən, ölkəmizin təşəbbüsü ilə mütəmadi olaraq keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu müxtəlif sivilizasiyaların nümayəndələri arasında təmasların daha nəticəyönümlü olması üçün unikal platformadır.

Azərbaycan on ildən çoxdur ki, Bakı Prosesinin təşəbbüskarıdır. Tarixdə ilk dəfə idi ki, Avropa Şurası və İslam Əməkdaşlığı Təşkilatı vahid platforma çərçivəsində bir araya gətirildi və burada qlobal siyasət, mədəniyyətlərarası dialoq və dinc inkişafa dair vacib məsələlər müzakirə edildi.

Azərbaycan, həmçinin dünyada ilk dəfə – XIX əsrin ortalarında neftin hasil edildiyi ölkə kimi tanınır. O zaman dünyada neft hasilatının yarısı Azərbaycanın payına düşürdü. Bir çoxları, bəlkə də, bunu bilmir, ancaq XX əsrin ortalarında dünyada ilk dəfə dənizdə neft məhz Azərbaycanda – Xəzər dənizində azərbaycanlı neftçilər tərəfindən hasil edilib.

Bu gün müstəqil ölkə olaraq bizim təbii sərvətlərimiz xalqımızın mənafeyinə xidmət edir. Müstəqillik illərinin sürətli transformasiyası bizim təbii sərvətlərimizin düzgün istifadəsinin təzahürüdür. Neftlə zəngin olan bəzi ölkələr üçün neft lənət deməkdir. Bizim üçün isə bu inkişaf etmək, müstəqilliyimizi gücləndirmək, milli kimliyimizi qorumaq və güclü iqtisadiyyat qurmaq üçün vasitə idi.

Bu gün enerji və nəqliyyat marşrutlarının, o cümlədən boru kəmərlərinin xəritəsinə nəzər salsanız, orada Azərbaycanın dəstxətini görərsiniz. Bizim təşəbbüskarı olduğumuz, qonşularımız və tərəfdaşlarımızla uğurla həyata keçirdiyimiz layihələr təkcə bizim regionun enerji təhlükəsizliyinə töhfə vermir. Bu gün hər kəsə məlumdur ki, enerji təhlükəsizliyi hər bir ölkənin milli təhlükəsizliyinin tərkib hissəsidir. Bu gün Azərbaycan beynəlxalq bazarlarda enerji ehtiyatlarının etibarlı təchizatçısıdır və Avropa İttifaqı tərəfindən etibarlı pan-Avropa təchizatçısı hesab edilir. Lakin tərəfdaşlarımız arasında müxtəlif qitələrdə yerləşən onlarla ölkə var və bütün səylər beynəlxalq əməkdaşlığa, proqnozlaşdırmaya və eyni zamanda ölkəmizin uğurlu iqtisadi inkişafına xidmət edir.

Üç il əvvəl biz, təxminən, 30 il ərzində pozulmuş ərazi bütövlüyümüzü bərpa etdik. Biz təcavüzdən, işğaldan və etnik təmizləmədən əziyyət çəkdik və bu, millətimiz üçün böyük faciə, böyük humanitar fəlakət idi. 1990-cı illərin əvvəlində torpaqlarımız işğal olunanda bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşdü və o vaxt əhalimizin sayı 8 milyon idi. Bu rəqəm hər hansı ölkə ilə müqayisədə, bəlkə də, adambaşına olan ən yüksək qaçqın sayı idi. Həmin vaxt biz çox yoxsul idik. Biz öz təbii sərvətlərimizin istismarına hələ başlamamışdıq. Açıq dənizə çıxışı olmayan ölkəmizdə hərcmərclik hökm sürürdü və gələcək üçün perspektivlər o qədər də aydın görünmürdü.

Lakin xalqımız güclü siyasi iradəsini nümayiş etdirdi. Biz uzun illər münaqişənin sülh yolu ilə həllini tapmağa və işğala dinc yolla son qoymağa çalışdıq. 28 il ərzində biz danışıqlar prosesinə qəti surətdə sadiq qaldıq, lakin, əfsuslar ki, biz anladıq: bunu sülh yolu ilə etmək mümkünsüzdür. Biz özünümüdafiə hüququmuzdan istifadə etdik. Biz BMT nizamnaməsinin hər bir ölkəyə verdiyi hüquqdan, özünümüdafiə hüququndan istifadə etdik və üç il əvvəl öz ərazilərimizi azad edərək işğala son qoyduq. Bir aydan da az müddət əvvəl biz ölkəmizin suverenliyini tam bərpa etdik.

Əfsuslar olsun ki, işğala son qoymaq öhdəliyini üzərinə götürmüş beynəlxalq təşkilatlar hər hansı nəticəyə nail olmadı. BMT Təhlükəsizlik Şurası erməni qoşunlarının ərazilərimizdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul etdi. Lakin həmin qətnamələr 27 il icra olunmadı. Biz həmin qətnamələri insanlarımızın həyatını qurban verərək özümüz icra etdik. ATƏT kimi beynəlxalq təşkilatların da danışıqlarda vasitəçilik etmək mandatı var idi, lakin nəticə sıfır oldu və Azərbaycan cəmiyyətində tam məyusluq və narazılıq yaratdı.

Ərazi bütövlüyünün və suverenliyin bərpasında əldə etdiyimiz təcrübə müəyyən formada unikal oldu. Zorakılıqla üzləşdiyimiz münaqişəyə son qoyduq. Biz ləyaqətimizi qoruduq. Biz ədaləti və beynəlxalq hüququ bərpa etdik. İndi isə Qafqazda sülh üçün vaxt yetişib. Bu bizim gündəliyimizdir. Gündəliyimiz Qafqazda sülhün, regionda sülhün, əməkdaşlığın qurulmasıdır və hamı üçün faydanın gətirilməsidir.

Bu gün biz göstəririk ki, həqiqətən, müstəqil ölkə olmaq üçün güclü iqtisadiyyat lazımdır. Biz aydın şəkildə anlayırıq ki, bütün əsas səylərimiz özünü təmin edən iqtisadiyyatın necə qurulmasına yönəlmişdir. Yəni biz hər hansı qlobal güc mərkəzindən və ya hər hansı maliyyə təsisatından asılı vəziyyətə düşməyək. Biz buna nail olduq.

Nəzərə alsaq ki, qonaqlarımızın əksər hissəsi Azərbaycana ilk dəfədir, səfər edir, mən sizə bəzi rəqəmlərlə bağlı məlumat vermək istərdim. Hesab edirəm ki, həmin rəqəmlər

*Ardı 2-ci səhifədə*

Azərbaycanda son zamanlarda əldə olunmuş nailiyyətləri aydın şəkildə nümayiş etdirir. Beləliklə, son 20 il ərzində, ümumi daxili məhsul dörd dəfə artıb, büdcə gəlirlərimiz 30 dəfədən çox artıb, xarici ticarət dövriyyəsi on dəfədən çox artıb. Biz birbaşa xarici borcun həcmini azalda bildik və hazırda o, ümumi daxili məhsulun, təxminən, 10 faizini təşkil edir. 2024-cü ilin sonuna qədər, planlarımıza uyğun olaraq, onun həcmi ümumi daxili məhsulun, təxminən, 7-7,5 faizini təşkil edəcək. Azərbaycanın xarici valyuta ehtiyatları birbaşa xarici borcumuzu on dəfə üstələyir. Başqa sözlə, əgər lazım gələrsə, biz bütün borclarımızı bir neçə ay ərzində ödəyə bilərik. Biz çox müsbət sərmayə mühitini nəinki enerji, o cümlədən digər sektorlarda yaratmışıq. Beləliklə, son 20 il ərzindəki sərmayələrin ümumi həcmi 300 milyard ABŞ dollarından çoxdur və onlardan 190 milyard dolları qeyri-enerji sektoruna yatırılmışdır.

Müstəqilliyimizin əvvəlində üzləşdiyimiz böyük çağırışlardan biri məlum olan yoxsulluq idi. 20 il əvvəl yoxsulluq şəraitində yaşayan insanların sayı 50 faizə yaxın idi. Hazırda isə yoxsulluq 5,5 faiz təşkil edir və onu göstərir ki, hasil etdiyimiz və beynəlxalq bazarlara çıxardığımız təbii sərvətlər lazımi qaydada idarə olunub. Milli sərvətlərin bərabər paylanması bu gün beynəlxalq ekspertlər və ən vacibi isə Azərbaycan xalqı tərəfindən qeyd olunur. Bir sözlə, bütün bunlar, əslində, göstərir ki, ölkə çox dayanıqlı vəziyyətdədir. Siyasi, iqtisadi və sosial sabitlik inkişafımızın mühüm meyarıdır, çünki aydındır ki, əgər vəziyyət sabit və proqnozlaşdırılan olmasa, investorların gələrək öz kapitalını risk altına atmasını gözləmək olmaz.

Ümid edirəm ki, qonaqlarımızın söylədiklərimi öz gözləri ilə görmək, insanlarla tanış olmaq və Azərbaycanı daha yaxşı tanımaq imkanı olacaq. Bəli, bizim qədim tariximiz var və o, videoçarxda göstərildi. Bizim qədim mədəniyyətimiz var. Lakin müstəqil ölkə kimi biz hələ çox gəncik, cəmi 32 yaşımız var.

Yekunda bir daha söyləmək istərdim ki, biz Konqresə ikinci dəfə ev sahibliyi etməkdən olduqca fərəhlənirik, çünki qeyd edildiyi və göstərildiyi kimi, o, artıq bir dəfə 1973-cü ildə təşkil olunmuşdur. 24-cü Konqres Bakıda keçirilmişdir. Mən bütün qonaqlarımıza və xüsusən də mənə əziz olan fotonu kosmosa çıxaran cəsur Çin astronavtlarına çox minnətdaram. Bu sanki onu göstərir ki, mən özüm də oradayam. Mən sizin icmanızın bir hissəsiyəm.

Əlbəttə ki, belə bir mühüm tədbirə ikinci dəfə ev sahibliyi etmək bizim üçün böyük şərəfdir və mən həmin qərarın qəbul olunmasında iştirak edən bütün şəxslərə bir daha təşəkkürümü bildirirəm. Beləliklə, Konqres ikinci dəfə Bakıda, eyni şəhərdə keçirilir. Lakin ölkə eyni deyil. Bu gün həmin qlobal tədbirin ev sahibi müstəqil Azərbaycandır. Bizimlə olduğunuza görə bir daha təşəkkür edirəm və Konqresə uğurlar arzulayıram.

***

Sonra bir sıra nominasiyalar üzrə qaliblərə mükafatlar təqdim olundu.

Açılış mərasimi konsert proqramı ilə davam etdi.

***

Qeyd edək ki, 2022-ci il mayın 28-də Bakıda ilk dəfə keçirilən “TEKNOFEST Azərbaycan” Aerokosmik və Texnologiya Festivalında Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla birgə “Akıncı” pilotsuz uçuş aparatının üzərinə imza atmışdılar.

74-cü Beynəlxalq Astronavtika Konqresi çərçivəsində Selçuk Bayraktar həmin pilotsuz uçuş aparatının kiçikölçülü maketini dövlətimizin başçısına hədiyyə etdi.

## Bakıda 74-cü Beynəlxalq Astronavtika Konqresi çərçivəsində sərgi təşkil olunub

### *Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sərginin açılışında iştirak ediblər*




Oktyabrın 2-də Bakıda 74-cü Beynəlxalq Astronavtika Konqresi çərçivəsində sərgi təşkil olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev sərginin açılışında iştirak ediblər.

Sərginin rəmzi açılışını bildirən lentin kəsilməsindən sonra iştirakçı şirkətlərin stendləri ilə tanışlıq olub.

Məlumat verildi ki, 8 min kvadratmetr sahədə yaradılan sərginin pavilyonunda 36 ölkədən 150 şirkətin stendləri iştirakçılara təqdim edilir.

Dövlətimizin başçısı və birinci xanım Türk Kosmik Agentliyinin, Səudiyyə Ərəbistanının Kosmik Agentliyinin, ABŞ-ın Milli Aeronavtika və Kosmos Administrasiyasının (NASA), Hindistanın Kosmik Tədqiqatlar Təşkilatının, “Israel Aerospace Industries” şirkətinin, İtaliyanın Aeronavtika və Astronavtika Assosiasiyasının, Çinin Astronavtika Cəmiyyətinin və digər şirkətlərin stendlərinə baxdılar.

Qeyd edək ki, 74-cü Beynəlxalq Astronavtika Konqresi kosmik sahədən olan 22 şirkətin əldə etdiyi sponsorluq paketinin sayına görə rekord həddə çatıb. Belə ki, Bakı Konqresi beynəlxalq sponsorluq paketinin satışı üzrə Avstraliya, Almaniya, ABŞ, Birləşmiş Ərəb Əmirlikləri və Fransada keçirilən konqresləri geridə qoyub. Konqresin, ümumilikdə, 30-dan çox sponsoru var.

Konqresin “premium”, “platinium”, “qızıl”, “gümüş” və “bürünc” sponsorluq paketlərini əldə edən şirkətlər arasında ABŞ-ın “Space X”, “Axiom Space”, “Blue Origin”, “Boeing”, “Lockheed Martin”, “BlackSky” “Vast”, “Northrop Grumman” şirkətləri, Çinin Astronavtika Cəmiyyəti, Türkiyənin Kosmik Agentliyi, “Plan S” texnologiya şirkəti, Səudiyyə Ərəbistanının Kosmik Agentliyi, “Israel Aerospace Industries” şirkəti, Birləşmiş Ərəb Əmirliklərinin Muhammed Bin Rəşid Kosmik Mərkəzi, Hindistan Kosmik Tədqiqatlar Təşkilatı, Yaponiya Aerokosmik Tədqiqatlar Agentliyi, “ispace”, “JGC Holdings Corporation”, “Astroscale” şirkətləri, “Airbus” şirkətinin Almaniyadakı ofisi, Beynəlxalq Kosmik Rabitə Təşkilatı “İntersputnik”, Portuqaliyanın “Neuraspace”, Bolqarıstanın “EnduraSat”, Avstriyanın “Asgardia Space”, İtaliyanın Aeronavtika və Astronavtika Assosiasiyası, Böyük Britaniyanın Kosmik Agentliyi, Amazonun “Kuiper” layihəsi, “Jet Propulsion Laboratory”, “Voyager Space” şirkətləri yer alır.

Xatırladaq ki, Beynəlxalq Astronavtika Federasiyası İkinci Dünya müharibəsindən sonra “soyuq müharibə” dövründə kosmos sahəsində elm adamlarının arasında dialoqun yenidən qurulması məqsədilə 1951-ci ildə yaradılıb. Federasiya sülh məqsədləri ilə kosmik tədqiqat və fəaliyyətin təşviq edilməsi, cəmiyyətin bu sahədə maariflənməsi və biliklərinin zənginləşdirilməsi məqsədilə üzv qurumlar arasında qlobal şəbəkə yaradır. Hər il Federasiya konfrans, texniki sessiyalar, quruma üzv ölkələrin nazirləri və parlament üzvlərinin beynəlxalq iclası kimi beynəlxalq tədbirlər təşkil edir. Hazırda Federasiyanın 110 ölkədən 460-dan çox üzvü var. Azərbaycan 2003-cü ildən Federasiyanın üzvüdür.

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ICESCO-nun Baş direktoru ilə görüşüblər



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 2-də ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Maliki ilə görüşüblər.

Görüşdə Azərbaycanda keçirilən və dünyanın müxtəlif ölkələrindən çox sayda qonağın iştirak etdiyi 74-cü Beynəlxalq Astronavtika Konqresinin önəmi vurğulandı, ölkəmizin nüfuzlu beynəlxalq tədbirlərin yüksək səviyyədə təşkil olunduğu məkana çevrildiyi qeyd edildi.

Dövlətimizin başçısı ICESCO-nun Baş direktorunun 74-cü Beynəlxalq Astronavtika Konqresində iştirakını yüksək qiymətləndirdi.

Salim bin Məhəmməd əl-Maliki ötən həftə Qətərin paytaxtı Doha şəhərində keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransında iştirakçıların yekdil qərarı ilə Azərbaycanın Şuşa şəhərinin 2024-cü il üzrə ICESCO-nun “İslam dünyasının mədəniyyət paytaxtı” adına layiq görülməsi münasibətilə dövlətimizin başçısını təbrik etdi.

Bu qərarın qəbul edilməsinə görə minnətdarlığını ifadə edən Azərbaycan Prezidenti bunu qardaşlığın və tərəfdaşlığın mühüm nümunəsi kimi dəyərləndirdi, bu hadisənin bütün Azərbaycan xalqında xüsusi qürur hissi doğurduğunu bildirdi.

Dövlətimizin başçısı Şuşada böyük bərpa və yenidənqurma işlərinin həyata keçirildiyini vurğulayaraq, burada digər obyektlərlə yanaşı, məscidlərin də artıq bərpa olunduğunu və bu prosesin davam etdirildiyini məmnunluqla diqqətə çatdırdı. Prezident İlham Əliyev bu cür genişmiqyaslı işlərin işğaldan azad edilmiş digər ərazilərimizdə də icra olunduğunu dedi.

Söhbət zamanı Azərbaycan ilə ICESCO arasında uzun illər həyata keçirilən uğurlu əməkdaşlığın bundan sonra da davam edəcəyinə əminlik ifadə olundu.

## Prezident İlham Əliyev Anqlikan Kilsəsinin dini rəhbərini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də Anqlikan Kilsəsinin dini rəhbəri, Kenterberi Arxiyepiskopu Castin Velbini qəbul edib.

Qonağı salamlayan dövlətimizin başçısı onun səfərinin əhəmiyyətinə toxundu.

Anqlikan Kilsəsinin dini rəhbəri, Kenterberi Arxiyepiskopu Castin Velbi Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı. Qonaq Azərbaycanın multikulturalizm və konfessiyalararası dialoqda rolunu qeyd etdi, Vatikanla Azərbaycan arasındakı əlaqələrə toxundu, Vatikanda katakombaların bərpası işinə ölkəmizin töhfəsini yüksək qiymətləndirdi.

Dövlətimizin başçısı müstəqilliyimizin ilk illərində ölkəmizin üzləşdiyi çətinliklərə toxunaraq, həmin dövrdə ərazimizin 20 faizinin işğal edilməsi, 1 milyondan çox soydaşımızın qaçqın və məcburi köçkünə çevrilməsi, iqtisadi-siyasi böhranın hökm sürməsi, iqtisadi sahədə tənəzzülün və daxili qeyri-sabitliyin yaşanmasından danışdı.

Azərbaycanın sülh müqaviləsi ilə bağlı təşəbbüslə çıxış etdiyi bir daha vurğulayan Prezident İlham Əliyev sülh gündəliyinin irəli aparılması üçün regionda tarixi imkanların və fürsətlərin yarandığını bildirdi, hazırda ölkəmizin bu istiqamətdə göstərdiyi səylərə toxundu.

Azərbaycan Prezidenti antiterror tədbirləri dayandırıldıqdan sonra mərkəzi hökumət tərəfindən Qarabağ bölgəsində yaşayan erməni əhalisinə genişmiqyaslı humanitar yardımlar edildiyini vurğuladı, miqrasiya, sosial müdafiə və səhiyyə sahələri ilə bağlı əhaliyə yerində xidmətlər göstərildiyini diqqətə çatdırdı.

Dövlətimizin başçısı Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qarabağın erməni sakinlərinin hüquqlarının və təhlükəsizliyinin təmin olunması ilə bağlı geniş ictimaiyyətə, həmçinin ermənilərə ünvanlanmış bəyanat verdiyini vurğuladı.

Prezident İlham Əliyev Qranadada keçiriləcək qarşıdan gələn görüşün regionda sülh gündəliyinin inkişafına təkan verəcəyinə ümidvarlığını ifadə etdi.

Qonaq bu cür postmünaqişə şəraitində etimad quruculuğu və etnik barışığın vacib olduğunu deyərək, bununla bağlı öz təcrübəsini bölüşməyə hazır olduğunu bildirdi.

Söhbət zamanı etnik barışığın və vətəndaş cəmiyyəti təşkilatlarının rolu qeyd edildi.

**AZƏRTAC**

## Ali Məclis Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə sərgi təşkil edib





Oktyabrın 2-də Naxçıvan Muxtar Respublikası Parlamentinin foyesində deputatlar və Ali Məclisin məsul əməkdaşları müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, Ümummilli Liderimiz Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə təşkil olunmuş və dahi şəxsiyyətin 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikasında yaşadığı, Ali Məclisin deputatı və Sədri işlədiyi dövrlərdə siyasi və dövlətçilik fəaliyyətini əks etdirən fotoşəkillərdən ibarət sərgiyə baxıblar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Azər Zeynalov bildirib ki, dahi rəhbərin siyasi fəaliyyətinin Naxçıvan dövrü nə qədər çətin və mürəkkəb bir zamana təsadüf etsə də, bu dövr Azərbaycanın müstəqillik tarixində çox böyük dəyərə malikdir. Ümummilli Lider Heydər Əliyevin Sədrliyi ilə 1990-cı il noyabrın 17-də Naxçıvan parlamentinin yeni tərkibdə keçirilən ilk sessiyasında Azərbaycanın müstəqilliyi və suverenliyi üçün qəbul edilmiş böyük tarixi qərarların – 70 ildən sonra üçrəngli bayrağımızın ilk dəfə Naxçıvanda qaldırılması, muxtar respublikanın adından “Sovet Sosialist” sözlərinin çıxarılması, Naxçıvanın SSRİ-nin saxlanması ilə bağlı keçirilən referendumda iştirak etməməsinin tarixi əhəmiyyətindən danışan Azər Zeynalov 1990-cı illərin əvvəllərində dahi şəxsiyyətin Naxçıvanda olması, fəaliyyət göstərməsi və naxçıvanlıların da Ulu Öndərin ətrafında sıx birləşməsi nəticəsində muxtar respublikanın işğaldan qurtulduğunu diqqətə çatdırıb.

Qeyd olunub ki, mühüm geostrateji ərazidə yerləşən Naxçıvan Muxtar Respublikasının Türkiyə ilə çoxəsrlik qonşuluq əlaqələrinin bərpası uzun illərdən sonra ilk dəfə Ümummilli Liderin Naxçıvanda fəaliyyət göstərdiyi dövrə təsadüf edir. Görkəmli dövlət xadimi 1992-ci ildə qonşu Türkiyə Cümhuriyyətinə səfərlər edib, keçirilən görüşlərdə iqtisadi sahədə əməkdaşlığa dair protokollar imzalanıb, iqtisadi, mədəni, təhsil və digər sahələrdə qarşılıqlı münasibətlər qurulub. Bunun nəticəsində qısa müddətdə Araz çayı üzərində “Ümid” körpüsü tikilib istifadəyə verilib. 1993-cü il iyun ayının əvvəllərində hakimiyyət böhranı bütün ölkəni cənginə almışdı. Artıq Azərbaycan öz dövlət müstəqilliyini ikinci dəfə itirmək təhlükəsi ilə üz-üzə idi. Vəziyyətin getdikcə ağırlaşdığını görən xalq yeganə ümid yeri kimi həmin vaxt Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olan Ulu Öndər Heydər Əliyevə üz tutdu. Dahi şəxsiyyət xalqın çağırışlarına cavab verərək 1993-cü il iyunun 15-də ikinci dəfə siyasi hakimiyyətə qayıtmaqla respublikanı xaosdan, anarxiyadan, parçalanmaqdan, məhv olmaqdan xilas etdi. Bu hadisə Azərbaycan dövlətinin tarixinə Milli Qurtuluş Günü kimi yazıldı. Həmin gündən etibarən Ulu Öndərin müdrik daxili və xarici siyasəti nəticəsində 1991-ci il sentyabrın 3-dən Naxçıvandan başlanan müstəqillik yolu ölkə miqyasında davam etdirildi. Beləliklə, tarix üçün qısa zaman ərzində Azərbaycan mühüm nailiyyətlər qazandı. Azərbaycanın inkişaf strategiyasının əsasını təşkil edən Heydər Əliyev yolu bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin XI (payız) sessiyasının ilk iclası keçirilib





Oktyabrın 2-də Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin XI (payız) sessiyasının ilk iclası keçirilib.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sessiyanın gündəliyinə aşağıdakı məsələlər verilib:

1. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qanunvericilik işləri planının təsdiq edilməsi
2. “Normativ hüquqi aktlar haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi
3. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İntizam Komissiyasının tərkibində dəyişiklik edilməsi

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Azər Zeynalov gündəlikdə duran birinci məsələ ilə bağlı qeyd edib ki, Ali Məclisin Daxili Nizamnaməsinin 8-ci maddəsinə əsasən növbəti sessiyanın ilk iclasında qanunvericilik işləri planı təsdiq olunmalı və iclaslar bu plana uyğun keçirilməlidir. Buna müvafiq olaraq Ali Məclisin 2023-cü il payız sessiyasının qanunvericilik işləri planı haqqında qərar layihəsi hazırlanıb.

Müzakirə olunan məsələ ilə əlaqədar qərar layihəsi oxunduqdan sonra səsə qoyularaq qəbul edilib.

Gündəlikdə duran ikinci məsələ – “Normativ hüquqi aktlar haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə bildirilib ki, 14 iyun 2023-cü il tarixdə “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişikliklər edilib. Naxçıvan Muxtar Respublikasının müvafiq qanununu həmin dəyişikliklərə uyğunlaşdırmaq məqsədilə qanun layihəsi hazırlanıb.

Qanun layihəsi barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin sədri İsmayıl Qəribli məlumat verib, layihə səsə qoyularaq qəbul olunub.

Gündəlikdə duran üçüncü məsələnin müzakirəsi zamanı qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 46.2-ci maddəsinə əsasən Ali Məclisin sədri və onun müavinləri İntizam Komissiyasında təmsil oluna bilməzlər. Mövcud İntizam Komissiyasının sədri Ali Məclis sədrinin birinci müavini olduğundan komissiyanın tərkibində dəyişiklik edilməsi zərurəti yaranıb.

Müzakirə olunan məsələ ilə əlaqədar hazırlanmış qərar layihəsi səsə qoyularaq qəbul olunub. Qəbul olunmuş qərarla deputatlardan Möhbəliyev Telman Əli oğlu, Niftəliyev Hüseyn Əsrafil oğlu və Babayev Tofiq Süleyman oğlu İntizam Komissiyasının üzvləri seçiliblər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Azər Zeynalov Ali Məclisin sessiya iclaslarında deputatların iştirakının və fəaliyyətinin Daxili Nizamnaməyə əsasən qurulmalı olduğunu diqqətə çatdırıb.

Azər Zeynalov Zəngəzur dəhlizinin açılması, bölgədə sülhün bərqərar olunması istiqamətində Azərbaycan Respublikası Prezidentinin gərgin mübarizə apardığını bildirib. Qeyd edib ki, Zəngəzur dəhlizinin açılması, ümumilikdə, ölkəmizin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər, nəticədə, muxtar respublika üçün də çox böyük əhəmiyyət daşımaqla, 30 ildən artıq müddətdə blokada şəraitində yaşayan Naxçıvanın blokadadan çıxmasına şərait yaradacaq. Görülən işlərdə ölkə başçısına dəstək ifadə olunub (Ali Məclis sədrinin birinci müavini Azər Zeynalovun müraciəti qəzetin bugünkü nömrəsində dərc olunur).

Bununla da Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin XI (payız) sessiyasının ilk iclası öz işini başa çatdırıb.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin XI (payız) sessiyasının ilk iclasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Azər Zeynalovun Müraciəti

Əsası 1969-cu ildə qoyulmuş inkişafın Heydər Əliyev yolunun bəhrələri bugünkü ərazi bütövlüyünü, suverenliyini bərpa etmiş qüdrətli Azərbaycandır. Bu gün Ulu Öndərimizin siyasi xəttinin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın müasir tarixinin şanlı səhifələri yazılmaqdadır. Dahi Öndərin əsasını qoyduğu inkişaf strategiyasını uğurla davam etdirən dövlət başçısının rəhbərliyi ilə ölkəmizin inkişafı daha da sürətlənib, yeni-yeni uğurlara imza atılıb.

Azərbaycan dövlətinin arzusu, məqsədi daim bir olub: regionda sülh və sabitliyin təmin olunması. Ulu Öndərdən miras qalan və ölkə başçısı tərəfindən uğurla davam etdirilən siyasətin əsas qayəsi budur. Azərbaycan xalqı hər zaman humanizm prinsiplərinə sadiqliyini, ən çətin məqamlarda belə insani dəyərlərə hörmətlə yanaşdığını bütün dünyaya nümayiş etdirir. Bunu Qarabağda baş verən son hadisələr bir daha təsdiqlədi. Prezident İlham Əliyevin xalqa müraciətində dediyi kimi, ***“Silahlı Qüvvələrimizin peşəkarlığı nəticəsində mülki vətəndaşlar tamamilə özlərini sığortalanmış vəziyyətdə hiss etmişlər”.*** Sentyabrın 19-da Qarabağ iqtisadi rayonunda həyata keçirilən lokal xarakterli antiterror tədbirləri Ermənistanın üçtərəfli Bəyanatın şərtlərini pozması, həmçinin Azərbaycan ərazisində yaratmış olduğu qondarma rejimin ölkəmizə qarşı terror aktları törətməkdə davam etməsi səbəbindən başladı. Ali Baş Komandanın rəhbərliyi, şanlı ordumuzun rəşadəti və peşəkarlığı sayəsində qanunsuz kriminal xunta rejimi tarixin tozlu səhifəsinə atıldı. Azərbaycan suverenliyini tam bərpa etdi. Bununla da ***“Hər bir müharibənin sonu olmalıdır.***

*Ardı 4-cü səhifədə*



*Müharibənin sonu isə sülhdür. Amma sülh ədalətli olmalıdır. Bizim üçün sülh o deməkdir ki, Azərbaycanın ərazi bütövlüyü təmin edilməli, erməni silahlı qüvvələri Azərbaycanın işğal olunmuş ərazilərindən çıxmalı, respublikamızın suverenliyi, sərhədlərinin toxunulmazlığı təmin olunmalıdır"*, – deyən Ümummilli Liderimiz Heydər Əliyevin arzusu yerinə yetirildi. Uğurla başa çatan, separatçıları ağ bayraq qaldıraraq təslim olmağa məcbur edən hərbi əməliyyatlar Qarabağda, ümumilikdə, bölgədə sülhə, əmin-amanlığa doğru atılmış addımlardır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi və muxtar respublika ictimaiyyəti adından Azərbaycan Respublikasının suverenliyinin bərpa olunması münasibətilə ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevi təbrik edirik.

Ümummilli Liderin yoluna sədaqətin nəticəsi olaraq Azərbaycanın Naxçıvan Muxtar Respublikası da inkişafının yeni mərhələsini yaşayır. Azərbaycan Respublikası Prezidentinin "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi ilə bağlı müvafiq Sərəncamı bu qayğının daha bir ifadəsidir. Ölkə başçısının tapşırığı və birbaşa nəzarəti ilə hazırlanan Dövlət Proqramı əldə edilmiş uğurların davamlılığını təmin etmək, abadlıq-quruculuq işlərinin daha da genişləndirilməsinə nail olmaq, infrastruktur obyektlərinin müasir tələblər səviyyəsində qurulmasına köməklik məqsədi daşıyır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 15 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın 2023-2024-cü illər üzrə Təfsilatlı Tədbirlər Planı da bu istiqamətdə görülən işlərin davamıdır. Müvafiq Dövlət Proqramının icrası ölkə Prezidentinin daim nəzarətindədir.

2023-cü ilin sentyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla birlikdə Naxçıvan Muxtar Respublikasına növbəti səfəri və bu səfərin Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə təsadüf etməsi, həmçinin Azərbaycan Respublikasının suverenliyini bərpa etməsinin ölkə başçısı tərəfindən buradan bütün dünyaya bəyan edilməsi bu ilin ən əlamətdar hadisəsinə çevrildi. Səfər çərçivəsində imzalanan sənədlər, İğdır-Naxçıvan qaz kəmərinin təməlinin atılması, Naxçıvan Bərpa-istehsalat hərbi kompleksinin açılışı hər iki ölkənin qardaşlığı, həmrəyliyi ilə yanaşı, bölgənin sülh, əmin-amanlıq şəraitində inkişafı ilə əlaqədar birgə fikir sərgilədiklərini bütün dünyaya nümayiş etdirdi. İğdır-Naxçıvan qaz kəmərinin təməlinin atılması muxtar respublikanın qaz təchizatının şaxələndirilməsinə şərait yaradacaq, bir mənbədən asılılığı aradan qaldıracaq, enerji təhlükəsizliyinin etibarlı təminatına imkan verəcək. Bu layihə cari ildə təsdiq edilən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda öz əksini tapıb və 11 əsas sahədən biridir.

Bütün qeyd olunanlar bir daha göstərir ki, "Heydər Əliyev İli" ölkəmizdə əldə olunmuş iqtisadi göstəricilərinə, sosial-mədəni sahədə qazanılan nailiyyətlərinə görə ən uğurlu il kimi tarixə düşəcək. Muxtar respublikanın inkişafı istiqamətində həyata keçirilən tədbirlərə, əhalinin sosial rifah halının daha da yaxşılaşdırılması göstərdiyi diqqət və qayğıya görə ölkə başçısına minnətdarlığımızı bildirir, Azərbaycan Respublikasının inkişafı və möhkəmlənməsində həyata keçirdiyi çətin, şərəfli dövlət idarəçiliyində uğurlar arzulayırıq.

## "Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Naxçıvan Muxtar Respublikasının Qanunu

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 24-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

"Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda aşağıdakı dəyişikliklər edilsin:

1. 23-cü maddə üzrə:

1.1. adına "hazırlanmasının" sözündən sonra ", razılaşdırılmasının, qəbul edilməsinin və dərc edilməsinin" sözləri əlavə edilsin;

1.2. 23.1-ci və 23.2-ci maddələrə "hazırlanması" sözündən sonra ", razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi" sözləri əlavə edilsin.

2. 25-ci maddə üzrə:

2.1. 25.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

"25.2 Bu Qanunun 25.3-cü maddəsində nəzərdə tutulan hallar istisna olmaqla, bir və ya bir neçə normativ hüquqi aktda dəyişikliklər edildikdə, həmçinin bir və ya bir neçə normativ hüquqi akt ləğv edildikdə, həmin dəyişiklikləri və ya ləğvetməni nəzərdə tutan aktın adında dəyişikliklər edilən və ya ləğv edilən normativ hüquqi aktın (aktların) adı (adları) göstərilməlidir.";

2.2. aşağıdakı məzmunda 25.3-cü və 25.4-cü maddələr əlavə edilsin:

"25.3. Aşağıdakı hallarda dəyişikliklər edilən və ya ləğv edilən normativ hüquqi aktın (aktların) adının (adlarının) göstərilməməsinə yol verilir:

25.3.1. ad və ya rəqəm dəyişiklikləri ilə əlaqədar bir neçə normativ hüquqi aktlara dəyişikliklər edildikdə və ya bir neçə normativ hüquqi akt ləğv edildikdə;

25.3.2. yeni normativ hüquqi aktın qəbul edilməsi ilə əlaqədar normativ hüquqi aktların kolliziyasının aradan qaldırılması məqsədilə bir neçə normativ hüquqi aktlara dəyişikliklər edildikdə və ya bir neçə normativ hüquqi akt ləğv edildikdə;

25.3.3. yeni normativ hüquqi aktla həmin aktın tənzimləmə predmetinə aid digər normativ hüquqi akt ləğv edildikdə.

25.4. Bu Qanunun 25.3.2-ci maddəsində nəzərdə tutulmuş hallarda həmin normativ hüquqi aktın adında onun hansı normativ hüquqi aktın qəbul edilməsi ilə əlaqədar olduğu qeyd edilir.".

3. 26.10-cu maddənin birinci cümləsinə "tərkib hissəsi olan," sözlərindən sonra "yarımbəndin nömrəsini təkrarlamaqla" sözləri əlavə edilsin.

4. 26.11-ci maddə üzrə:

4.1. ikinci cümlədən "(abzas yarımbəndin mətninin birinci sətrinə münasibətdə)" sözləri çıxarılsın;

4.2. üçüncü cümlədə "və ya yarımbəndinə" sözləri ", yarımbəndinə və abzasına" sözləri ilə əvəz edilsin.

5. 41-ci maddə üzrə:

5.1. 41.2.2-ci maddəyə "rəhbəri" sözündən sonra "(o olmadıqda isə onun vəzifələrini icra edən şəxs)" sözləri əlavə edilsin;

5.2. 41.4-cü maddədən ", onun vizalanması isə ən geci 5 gün keçənədək" sözləri çıxarılsın və həmin maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Normativ hüquqi aktın layihəsi razılaşdırıldıqdan sonra ən geci 7 gün keçənədək vizalanmalıdır, əks halda layihə vizalanmış hesab olunur.".

6. 43-cü maddə üzrə:

6.1. 43.2.1-ci maddədən "(müvafiq layihələr əlavə olunmaqla (olduğu halda))" sözləri çıxarılsın;

6.2. aşağıdakı məzmunda 43.2-1-ci maddə əlavə edilsin:

"43.2-1. Normativ hüquqi aktın layihəsinin uyğunluğunun təmini haqqında arayışa aşağıdakılar barədə məlumatlar daxil edilməlidir:

43.2-1.1. qanun və fərman layihələrinin qəbul olunması ilə əlaqədar ləğv, dəyişikliklər edilməli və hazırlanmalı olan digər qanun və fərman layihələrinin olub-olmaması (olduğu halda müvafiq layihələr əlavə olunur);

43.2-1.2. layihənin hansı dövlət orqanları (qurumları) ilə razılaşdırıldığı.".

7. 61.5-ci maddədə "olan" sözü "olub-olmamasından asılı olmayaraq, hər hansı" sözləri ilə əvəz edilsin.

8. 70-ci maddə üzrə:

8.1. 70.1-ci maddə ləğv edilsin;

8.2. 70.2-ci maddədə "olaraq zəruri hallarda" sözləri "normativ hüquqi aktların kolliziyasının aradan qaldırılması məqsədilə" sözləri ilə əvəz edilsin.

9. 71.3-cü maddə ləğv edilsin.

10. 79.4-cü maddənin ikinci cümləsindən ", habelə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq hüquqi məlumatın yayılması üçün xüsusi razılığa (lisenziyaya) zərurət olduqda, hüquqi məlumatın yayılması üçün belə xüsusi razılığın (lisenziyanın) verilmə nömrəsi və tarixi" sözləri çıxarılsın.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini Azər ZEYNALOV**

*Naxçıvan şəhəri, 2 oktyabr 2023-cü il*

## Naxçıvanda prokurorluq orqanlarının yaranmasının 105-ci ildönümü qeyd olunub

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əməkdaşları prokurorluq orqanlarının yaranmasının 105-ci ildönümünü qeyd ediblər. Tədbir iştirakçıları əvvəlcə Ümummilli Liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini ziyarət edib, önünə gül dəstələri düzüb, dahi şəxsiyyətə ehtiramlarını bildiriblər. Naxçıvan Muxtar Respublikası Prokurorluğunda davam edən tədbirdən öncə prokurorluğun inzibati binasının foyesində Ulu Öndərin anadan olmasının 100 illiyi ilə əlaqədar yaradılan guşə ilə tanışlıq olub, görkəmli dövlət xadiminin büstü önünə gül dəstələri düzülüb. Qeyd olunub ki, guşədə Ümummilli Liderimiz Heydər Əliyevin ölkəmizə hər iki rəhbərliyi dövründə etdiyi xarici səfərləri, o cümlədən Prezident cənab İlham Əliyevin Silahlı Qüvvələrin, prokurorluq orqanlarının əməkdaşları ilə keçirdiyi görüşləri əks etdirən fotolar yer alıb.

Tədbirdə əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirələri bir dəqiqəlik sükutla yad edilib. Naxçıvan Muxtar Respublikasının prokuroru, III dərəcəli dövlət ədliyyə müşaviri Sənan Paşayev çıxışında əməkdaşları təbrik edib, onlara qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının daha etibarlı müdafiəsi işində uğurlar arzulayıb. Bildirib ki, Ümummilli Lider Heydər Əliyevin 1998-ci il 17 iyul tarixli Sərəncamına əsasən hər il oktyabr ayının 1-i "Prokurorluq işçilərinin peşə bayramı günü" kimi qeyd olunur. Peşə bayramı gününün təsis edilməsi prokurorluq orqanlarına böyük qayğının ifadəsi olmaqla yanaşı, həm də prokurorluq işçilərinin fəaliyyətinə verilən qiymət kimi əhəmiyyətlidir. Azərbaycanda prokurorluq orqanlarının əsasının 1918-ci il oktyabrın 1-də qoyulmasına baxmayaraq, onun dövlət orqanı kimi formalaşması və inkişafı Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin 1993-cü ildə Azərbaycanda ali hakimiyyətə qayıdışından sonra respublikamızda qanunun aliliyi təmin olunub, vətəndaşların hüquq və azadlıqlarının yüksək səviyyədə müdafiəsi



mühüm prinsip kimi elan edilib. Bu tədbirlərin tərkib hissəsi kimi 1995-ci il noyabrın 12-də qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası məhkəmə hüquq islahatlarının həyata keçirilməsinə, habelə prokurorluq orqanlarının fəaliyyətinin keyfiyyətcə yeniləşməsinə və demokratikləşməsinə möhkəm zəmin yaradıb.

Vurğulanıb ki, Ulu Öndərin rəhbərliyi ilə prokurorluq orqanlarında aparılan islahatların əsas məqsədi qanunçuluğun möhkəmləndirilməsindən, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsindən və kadrların peşəkarlıq səviyyəsinin artırılmasından ibarət olub. Qarşıda duran bu və digər məqsədlərin həyata keçirilməsi baxımından 1999-cu il 7 dekabr tarixdə qəbul olunmuş "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanunu müstəsna əhəmiyyət daşıyır. Bu Qanun prokurorluğun fəaliyyətinin forma və metodlarının demokratik dəyərlərə uyğunlaşdırılması baxımından hüquqi zəmin formalaşdırıb. "Prokurorluq orqanlarında qulluqkeçmə haqqında" Azərbaycan Respublikası Qanununun, "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında" Əsasnamənin və digər normativ-hüquqi aktların təsdiq edilməsi isə prokurorluq orqanlarının fəaliyyətində hüquqi tənzimlənmə prosesini yeni mərhələyə yüksəldib.

Diqqətə çatdırılıb ki, bu gün Ulu Öndərimizin siyasi kursunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə prokurorluq orqanlarının fəaliyyətinin daha da müasirləşdirilməsi və təkmilləşdirilməsi istiqamətində zəruri tədbirlər həyata keçirilib. Bu sahədə görülən işlərin bir mərhələsi olaraq Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 10 iyun tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Baş Prokurorluğunun müasir tələblərə cavab verən yeni strukturu təsdiq edilib və bundan sonra baş prokuror Kamran Əliyev tərəfindən Azərbaycan Baş Prokurorluğunun tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası Prokurorluğunun da yeni strukturu formalaşdırılıb. Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanları həmişə öz üzərində yüksək dövlət qayğısını hiss edib, ötən dövrdə muxtar respublika prokurorluğunun, eləcə də rayon, şəhər prokurorluqlarının normal fəaliyyət göstərməsi üçün lazımi şərait yaradılıb. Əməkdaşlar yaradılan əlverişli şəraitdən səmərəli istifadə edərək insanların hüquq və azadlıqlarını qorumaqla, daxil olan müraciətləri obyektiv və operativ şəkildə baxıb qanuni və əsaslı qərarlar qəbul etməklə, baş vermiş cinayət hadisələrinin vaxtında qeydə alınmasını, qanunlara riayət edilməsini təmin etməklə, möhtərəm Prezident tərəfindən həyata keçirilən davamlı inkişafa, məqsədyönlü və uğurlu islahatlara öz töhfəsini verməyə çalışırlar.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Prokurorluğunun şöbə rəisi Faiq Səfərov, Kəngərli rayon prokuroru Talıb Məmmədov və Sədərək rayon prokuroru Valid Mustafayev çıxış edərək prokurorluq orqanlarının keçdiyi şərəfli yoldan söhbət açıb, həmkarlarına bayram təbriklərini çatdırıblar.

Yüksək dövlət qayğısını daim öz üzərlərində hiss edən prokurorluq orqanlarının əməkdaşlarının bundan sonra da qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsində, vətəndaşların hüquq və azadlıqlarının daha etibarlı müdafiəsində səylə çalışacaqlarını diqqətə çatdıran Naxçıvan Muxtar Respublikasının prokuroru, III dərəcəli dövlət ədliyyə müşaviri Sənan Paşayev əməkdaşları bir daha peşə bayramı münasibətilə təbrik edib, bundan sonrakı fəaliyyətlərində uğurlar arzulayıb.

**Nail ƏSGƏROV**

# "Böyük Qayıdış"ın addım səsləri

## *Azərbaycanın bütün Qarabağ bölgəsi sıfırdan yenidən inşa edilir*

***Prezident cənab İlham Əliyevin ötən həftə Cəbrayıl və Zəngilan rayonlarına səfəri 2017-ci ildən başlayan "Böyük Qayıdış"ın növbəti mərhələsi, Tarixi Zəfərdən sonra görülən işlərin bir qisminin yekunu, bir qisminin isə yeni başlanğıclara uyğun davam etdirilməsi ilə xarakterizə olunur. Xüsusilə Zəngilanda 2-ci Azərbaycan Milli Şəhərsalma Forumunun açılış mərasimi və cənab Prezidentin bu tədbirdəki çıxışı zamanı səsləndirdiyi fikirlər, verdiyi mesajlar olduqca əhəmiyyətli və regionun gələcəyi baxımından diqqətəlayiqdir.***

Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə qüdrətli ordumuzun 2016-cı ildə azad etdiyi Lələtəpə zirvəsi Qarabağa dönüşün və məskunlaşmanın möhkəm istinadgahına çevrildi və "Böyük Qayıdış" Cocuq Mərcanlıdan başladı. Hələ 2020-ci il oktyabrın 2-də "Əl-Cəzirə" televiziya kanalına müsahibəsində cənab Prezidentin dediyi ***"Mən demişdim ki, Cocuq Mərcanlı ləyaqətimizin rəmzidir, iradəmizin rəmzidir və Cocuq Mərcanlı bizim qayıdışımızın rəmzidir. Mən demişdim ki, qayıdışımız indi başlayır. Mən əminəm ki, o ərazilərdən köçürülənlərin hamısı geri qayıdacaq"*** fikirləri məhz bu səfər müstəvisində həmin bəyanatın həyata keçirilməsi və xalqımızın illərdən bəri gözlədiyi tarixi ədalətin reallaşması baxımından böyük əhəmiyyətə malikdir.

Prezident cənab İlham Əliyevin sentyabrın 28-də Cəbrayıl və Zəngilan rayonlarına səfəri çərçivəsində Cəbrayıl şəhərində inzibati binanın təməlinin qoyulması, burada inşa edilən ilk yaşayış məhəlləsi – 718 mənzildən ibarət Cəbrayıl Yaşayış Kompleksində aparılan tikinti işləri ilə tanışlıq, ümumilikdə, 1833 mənzildən ibarət olması nəzərdə tutulan Şirvan, Lənkəran və Yevlax Yaşayış kompleksləri, bundan başqa, 960 şagird yerlik orta məktəb binası və 80 yerlik uşaq bağçasının da tikilməsi üçün görülən işlər, "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin Cəbrayıl Rəqəmsal İdarəetmə Mərkəzinin istifadəyə verilməsi, 2568 sakin üçün 498 fərdi evdən və 144 mənzildən ibarət 2-3 mərtəbəli bloklaşdırılmış evlərin layihələndirildiyi Zəngilan rayonunun Alıbəyli kəndinin, Oxçuçayın sahilində, Zəngilan-Mincivan yolunun üzərində düzənlik ərazidə yerləşən 1631 sakin üçün 306 fərdi evin və 102 mənzildən ibarət 2-3 mərtəbəli bloklaşdırılmış evlərin tikilməsinin nəzərdə tutulduğu Zəngilan kəndinin təməlinin qoyulması, eyni zamanda Zəngilan şəhərində 2-ci, 3-cü və 4-cü yaşayış komplekslərinin, 160 yerlik uşaq bağçasının əsasının qoyulması, Zəngilan şəhər məscidində görülən işlərlə tanışlıq Şərqi Zəngəzurda sürətlə aparılan işlərin real mənzərəsini və miqyasını təsəvvür etməyimizə imkan verməklə yanaşı, eyni zamanda ölkə başçısının ***"Bu gün isə bu torpağın sahibləri, əsl sahibləri qayıdıb, sürətli inkişaf baş verir"*** fikirlərinin ən yaxşı təzahürü olaraq görünür.

"Böyük Qayıdış" proqramına uyğun olaraq Zəngilanda növbəti yaşayış məhəllələrinin salınması çərçivəsində 410 mənzildən ibarət yeni yaşayış komplekslərinin tikintisi, bu komplekslərdə "taunhaus" tipli evlərin, 3, 4 və 5 mərtəbəli çoxmənzilli binaların inşası nəzərdə tutulur. Bu isə Prezidentin öz çıxışlarından birində səsləndirdiyi ***"Biz bu gün xalqımızın və dövlətimizin yeni tarixini yazırıq, şanlı tarixini yazırıq. Biz bu gün tarixi ədaləti bərpa edirik. Çünki Qarabağ torpağı bizim əzəli tarixi torpağımızdır. Azərbaycan xalqı əsrlər boyu bu torpaqlarda yaşayıb, yaradıb, qurub, tikib"*** fikirlərini bir daha təsdiq edir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Cahangirbəyli" Su Elektrik Stansiyasının açılışında iştirakı isə regiondakı enerji layihələrinin uğurla icra olunmasını bir daha təsdiq etdi. Beləliklə, işğaldan azad edilən ərazilərdə tam yeni tikilən 4 stansiyadan ibarət "Zəngilan" Su Elektrik stansiyaları silsiləsində il ərzində 130 milyon kilovat-saatdan artıq "yaşıl enerji" istehsal ediləcək. Bu da alternativ enerji mənbələrinə keçiddə çox böyük rol oynamaqla, Prezident cənab İlham Əliyevin regionu "yaşıl enerji" zonasına çevirməklə bağlı tapşırığının icrasına mühüm töhfədir. Silsilə SES layihəsi regionun enerji və iqtisadi inkişafına töhfə verməklə bərabər, əhalinin məşğulluğu baxımından da əhəmiyyətlidir.

Onu da qeyd edək ki, 42 meqavatlıq "Zəngilan" Su Elektrik stansiyaları silsiləsi işğaldan azad edilən ərazilərdə tamamilə yeni inşa edilən ilk ən böyük enerji istehsalı layihəsidir. Bu layihə rekord müddətdə – cəmi bir ilə ərsəyə gəlib. İndiyədək nə Azərbaycanda, nə də digər yerlərdə bu sayda, bu gücdə və bu müddətdə SES-lərin tikilməsi faktına rast gəlinib. Bu isə ötən həftə Zəngilanda keçirilən 2-ci Azərbaycan Milli Şəhərsalma Forumu ilə paralel şəkildə Naxçıvanda baş tutan Azərbaycan-Türkiyə III Enerji Forumu və "Naxçıvan – Yaşıl Enerji Zonası" Beynəlxalq Konfransında regionun "yaşıl enerji" potensialı və istehsal olunan enerjinin ixrac məsələləri ilə bağlı qarşıya qoyulan işlərin icrası baxımından bir-birilə səsləşən proses idi.



Enerji siyasətindən danışıldıqda Azərbaycan-Türkiyə tərəfdaşlığı xüsusi qeyd olunmalıdır. Xüsusilə Zəngəzur dəhlizinin açılması perspektivində Naxçıvanın enerji potensialından səmərəli istifadə və muxtar respublikanın "yaşıl enerji" zonasına çevrilməsi sahəsində nəzərdə tutulan layihələr mühüm əhəmiyyət daşıyır. Yaxın gələcəkdə qarşıya qoyulan əsas hədəf isə Naxçıvanda alternativ və bərpa olunan enerji potensialından maksimum istifadə etməkdən, elektrik enerjisinin Türkiyəyə ixrac edilməsi və Avropaya ötürülməsindən ibarətdir.

Naxçıvanda "yaşıl enerji" konsepsiyasının həyata keçirilməsi və enerji potensialından səmərəli istifadə məqsədilə sistemli işlər aparılır. "Heydər Əliyev İli" çərçivəsində Bakı Enerji Forumunun "Naxçıvan və Şərqi Zəngəzurun "yaşıl enerji" potensialı" mövzusunda xüsusi sessiyasının bu il iyunun 3-də Naxçıvan şəhərində keçirilməsi, bu zaman bir sıra müqavilələrin imzalanması bu sahədə atılan mühüm addımlardır. Naxçıvanda həyata keçirilən bu layihələrin Zəngəzur dəhlizinin onurğa sütunu kimi bu regionun Şərqi Zəngəzurda istehsal ediləcək "yaşıl enerji"nin Türkiyə və Avropaya ötürülməsində müstəsna əhəmiyyəti var.

Sentyabrın 29-da Zəngilanda "Davamlı şəhərlər iqtisadi inkişafın hərəkətverici və bərabərsizliklərlə mübarizə aparan qüvvəsi kimi" mövzusunda 2-ci Azərbaycan Milli Şəhərsalma Forumunun açılış mərasimində cənab Prezidentin "Bu gün bu region Azərbaycanın bütün Qarabağ bölgəsi kimi, sıfırdan yenidən inşa edilir" bəyanı isə işğalçı dövlətin ötən illər ərzində regionda yürütdüyü talançılıq siyasətinin hansı ağır nəticələrə gətirib çıxardığını bir daha beynəlxalq aləmə göstərməklə yanaşı, ***"Bu bizim ikinci Azərbaycan Milli Şəhərsalma Forumumuzdur, bizim dostluğumuzun təzahürüdür. Bizim birgə marağımızın təzahürüdür ki, işğal dövründə tamamilə dağıdılmış əraziləri yenidən inşa edək"*** ifadələri isə Azərbaycanın beynəlxalq gücünün bəyanı idi.

Zəngilan şəhərinin ilk sakinlərinin qayıdacaqları vaxtın müjdəsini verən Prezident bu bölgənin xüsusi əhəmiyyətini də qeyd etdi: ***"Biz Zəngilanı mühüm nəqliyyat qovşağı hesab edirik, çünki onun coğrafi mövqeyi bunu labüd edir. Zəngilan nəqliyyat dəhlizləri üzərində yerləşir və ona görə Zəngilan Beynəlxalq Hava Limanının inşası da bu bölgənin inkişafı baxımından mühüm faktor olmuşdur".*** Bu həm labüd reallıq olan Zəngəzur dəhlizinin fəaliyyətə başlamasından sonra bölgənin qeyd olunan istiqamətdə artan əhəmiyyətini bir daha göstərir, həm də ölkə başçısının gələcəyə hədəflənmiş, Azərbaycanın regionda liderliyini təmin edən düşünülmüş siyasətinin və uğurlu diplomatiyasının əyani təzahürüdür. Görülən hər bir iş perspektiv gələcəyə hesablandığından bir-birilə sistemli şəkildə əlaqələndirilmiş və məntiqi ardıcıllıqla həyata keçirilir. Bu həm də ölkəmizin artan qüdrəti fonunda regionda reallaşan hər bir layihənin, həyata keçirilən hər bir prosesin əsas hərəkətverici qüvvəsi rolunu oynayan Azərbaycanın aparıcı söz sahibi olduğunu, o olmadan bölgədə heç bir qlobal layihənin gerçəkləşmə imkanının olmadığını bir daha təsdiq edir.

İstər azad olunmuş ərazilərdə inşa edilmiş ikinci hava limanı olan Zəngilan Beynəlxalq Hava Limanı, istər sovet dövründə mövcud olan və hazırda erməni qüvvələri tərəfindən sökülmüş olan dəmir yolu xəttinin bərpa edilməsi, Horadizdən Zəngilana çəkilən dəmir yolunun inşası tezliklə bu nəqliyyat dəhlizinin mühüm hissələrini hazır vəziyyətə gətirəcək. Bu isə Azərbaycanın əsas ərazisini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək layihədir. Oradan isə həmin dəmir yolu İran və Türkiyəyə keçəcək və nəhayət, Avropaya çatacaq. Tezliklə bu layihələrin istifadəyə verilməsi Zəngilanın çox vacib nəqliyyat mərkəzi olmasına imkan verəcək.

Regionda görülən işlər təkcə bərpa etmək deyil – burada müasir texnologiyalar, "ağıllı şəhər" və "ağıllı kənd"lər inşa olunur. Burada ən müasir şəhərsalma nümunələrindən istifadə edilir. İndi artıq məcburi köçkünlər Laçın şəhərinə, Füzuli şəhərinə, Ağalı kəndinə, Talış və Zabux kəndlərinə qayıdıblar. 8 şəhər və 92 kəndin Baş planı artıq təsdiqlənib və 30 kəndin təməli qoyulub. Bu isə ***"Böyük Qayıdış Proqramının icrası bizim üçün bir nömrəli vəzifədir"***, – deyən Prezident cənab İlham Əliyevin bu istiqamətdə bu günə qədər gördüyü işlərin hələlik yekun hesabatı kimi səslənir.

Təbii ki, görülən bu işlərin fonunda digər əsas bir element isə infrastrukturdur. Bölgənin mövcud enerji potensialı, nəqliyyat və yaşayış layihələri növbəti üç ildə 100 mindən çox keçmiş məcburi köçkünün evlərinə qayıtmasına imkan verəcək. Yeri gəlmişkən qeyd edək ki, artıq 2300 məcburi köçkün evlərinə qayıdıb və ilin sonunadək onların sayının 5500-ə çatdırılması nəzərdə tutulur. ***"Mən Ağalı kəndində dəfələrlə olmuşam – sakinlərin qayıdışından əvvəl və sonra. Mən onun şahidi oldum ki, oraya qayıdan insanlar öz köklərinə nə dərəcədə bağlıdırlar. Heç zaman öz vətənini görməyən gənc nəsil qayıdıb. Bu onu nümayiş etdirir ki, Azərbaycan xalqı öz köklərinə necə dərindən bağlıdır"*** fikirləri cənab Prezidentin rəhbərliyi ilə həyata keçirilən tədbirlərin yüksək nəticəsi olaraq hər kəs tərəfindən rəğbətlə qarşılanır. Çünki Azərbaycan xalqının yaddaşından bu tarixi, bu torpaqları heç kim silə bilməz.

53 ölkədən 200-ə yaxın nümayəndənin iştirak etdiyi forumda Azərbaycan Prezidentinin genişməzmunlu çıxışı görülən işlər, qarşıya qoyulmuş məqsədlərə çatmaq yolunda həyata keçirilən tədbirlər və xüsusilə son günlərin əsas mövzularından biri olan – etnik ermənilərin Qarabağı könüllü şəkildə tərk etməsi kontekstində kifayət qədər əhəmiyyətli mesajlar verdi. ***"İndi isə müharibədən sonra və sonuncu hərbi əməliyyat ki, baş verdi, on gün əvvəl biz yenidən bunu bəyan etdik: Qarabağın erməni əhalisinin hüquqlarını təmin edəcəyik. Artıq biz onlara bu məsələ ilə bağlı, reinteqrasiya ilə bağlı öz baxışımızı təqdim etmişik"*** fikirləri isə beynəlxalq konvensiyalara uyğun olaraq bütün bu məsələlərin həll ediləcəyinin ifadəsi idi. Bununla da Azərbaycanın iştirakçısı olduğu bütün konvensiyalara, Konstitusiyamıza və beynəlxalq öhdəliklərə sadiqliyini, beynəlxalq aləmdə ***"Bizim sözümüz imzamız qədər keçərlidir"*** faktını bir daha təsdiqləyən və rəsmiləşdirən bəyanat idi.

Azərbaycanın öz ərazilərində suveren hüquqlarını bərpa etmək üçün keçirdiyi lokal xarakteri antiterror tədbirlərini beynəlxalq müstəviyə ölkəmiz əleyhinə çevrilmiş proseslər kimi təqdim etməyə çalışan, beynəlxalq hüquqa uyğun şəkildə görülən işləri Azərbaycanın həyata keçirdiyi "qanunsuz əməllər" kimi əks etdirməyə cəhd göstərən, nədənsə 30 il ərzində beynəlxalq hüququn bərpa olunmasına qarşı kar, kor və lal olan bəzi qüvvələrin indi birdən-birə Azərbaycana qarşı fəal mövqeyə keçib ölkəmizi ədalətsiz proses aparmaqla günahlandıran erməni havadarlarına və Ermənistan hakimiyyətinə Ali Baş Komandan olaraq ölkə başçısının dediyi sözlər və verdiyi açıq mesajlar, xüsusilə Şərqi Zəngəzurda olduqca qüdrətli və əzəmətli səsləndi. ***"Biz, nəticədə, harada istəsəydik, orada dayanacaqdıq. Bunu demək o qədər də çətin deyil. Ancaq bizim niyyətimiz bundan ibarət deyildi. Biz Ermənistanın ərazi bütövlüyünü tanımışıq, bunu bəyan etmişik və bunu səmimi deyirik. Yəni bizim başqa niyyətlərimiz olsaydı, əməliyyat sentyabrın 20-də dayanmazdı. Mən bunu hər kəsin bilməsini istəyirəm. Bunu Ermənistan hakimiyyəti də bilsin, onun arxasında duran himayədarları da bilsin"*** kimi əsl sərkərdə, Ali Baş Komandan açıqlaması bizim hərbi-siyasi gücümüzü, beynəlxalq müstəvidəki iradəmizi, nüfuzumuzu çox açıq və qətiyyətli şəkildə bütün dünyaya bəyan etməkdir. Bu bizim sözümüzə sadiqliyimizin, sülh tərəfdarı olduğumuzun və regionun gələcəyi üçün əhəmiyyətli işlər görmək istədiyimizin ən yaxşı göstəricisi idi.

Ölkə başçısı cənab İlham Əliyevin öz çıxışında ***"Biz sülh istəyirik, biz bu əraziləri bərpa etmək istəyirik, soydaşlarımızı Vətəninə qaytarmaq istəyirik. Biz Qafqazda sülh və sabitlik istəyirik. Bu, mümkündür və seçim Ermənistanındır"*** çağırışını səsləndirməsi isə qarşı tərəf üçün kifayət qədər açıq səslənən və növbəti dəfə onlara uzadılmış sülh əlinin təzahürüdür.

*Yekun olaraq onu deməliyik ki, Şəhərsalma Forumu çərçivəsində keçirilən "Viranlıqdan dayanıqlılığa: parlaq gələcəyə aparan yol" mövzusunda ikinci sessiyanın sərlövhəsi belə Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin artıq keçmişdə qalmaqda olan mənzərəsindən perspektivdə görünən parlaq gələcəyə aparan yol xəritəsinin sürətlə reallaşmasının beynəlxalq müstəvidə qəbul olunmuş formasıdır. Ölkə başçısının **"Biz səbirliyik, ancaq qətiyyətliyik"** iradəsi isə yaxın gələcəkdə bizi daha möhtəşəm dəyişikliklərə, uğurlu yeniliklərə şahid etmək əzmindədir.*

**✍ Məmməd BABAYEV**

## Təhsilini başa vuran ixtisaslı həkimlərlə görüş olub



Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin birinci müavini, nazirin səlahiyyətlərini icra edən Samiq Sadıxovun təhsilini başa vuran ixtisaslı həkimlərlə görüşü olub.

Azərbaycan Tibb Universitetinin rektoru Gəray Gəraybəyli ilə birlikdə ixtisaslı həkimlərlə görüşündə Samiq Sadıxov Naxçıvan Muxtar Respublikasında səhiyyə sahəsində aparılan islahatlar və əldə olunan nəticələr barədə auditoriyaya məlumat verib. O vurğulayıb ki, Naxçıvanın sürətlə inkişaf edən səhiyyə sistemində müasir texnologiyalardan istifadə edə biləcək təhsilli kadrlara ehtiyac var.

Görüş zamanı həkimlər Naxçıvandakı iş imkanları ilə tanış edilib və onların sualları cavablandırılıb. Həkim rezidentlərin marağına səbəb olan görüşdə, həmçinin Naxçıvanda yerləşən tibb müəssisələri haqqında hazırlanan videoçarx da nümayiş etdirilib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan və ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən təhsil siyasəti bu gün dəyişən dövrün tələblərinə uyğun müasir inkişaf mərhələsindədir. Qazanılan nailiyyətlərin timsalında böyük qürur hissi ilə deyə bilərik ki, artıq təhsilimiz qarşıya qoyulan hədəflərə doğru inamla irəliləyir.*

**Təhsil millətin gələcəyidir**

# Müasir təlim modeli, peşəkar heyət yüksək göstəricilərin qazanılmasına şərait yaradır

Bu gün Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında Ulu Öndər Heydər Əliyevin siyasi kursu bütün sahələrdə ardıcıl davam etdirilir. Təhsil sahəsində həyata keçirilən tədbirlər, reallaşdırılan innovativ layihələr də bu siyasətin tərkib hissəsidir. Qədim yurd yerində bir-birinin ardınca tikilib istifadəyə verilən, ən müasir maddi-texniki bazaya malik məktəb binaları, təhsilin keyfiyyətinin yüksəldilməsinə yönələn tədbirlər bu baxımdan xüsusi dəyərə malikdir. Muxtar respublikamızda fəaliyyət göstərən "İstedad-XXI əsr" kursları da təhsilimizin inkişafı naminə həyata keçirilən layihələrdəndir. Həmin kurslar fəaliyyətə başladığı zamandan etibarən qəbul göstəriciləri ilə daim





seçilir. Kursun fəaliyyəti, müəssisənin tədris keyfiyyətinin artırılması istiqamətində görülən işlər və gələcək planlar barədə oxucularımıza məlumat vermək üçün həmin ünvana üz tutduq. Kursun rəhbəri **Şirin Orucov** bildirdi ki, kursun heyəti Azərbaycan təhsilinə yararlı, savadlı gənclər yetişdirmək üçün səylə çalışır. Abituriyentlərin hazırlanmasında, müxtəlif xarici dillərin tədrisində, məktəbəqədər və ibtidai sinif şagirdlərində zəkanın inkişafında uğurla xidmət göstərir.

Müsahibim qeyd edir ki, "İstedad-XXI əsr" hazırlıq kursları Naxçıvan Muxtar Respublikasında 2014-2015-ci tədris ilindən etibarən fəaliyyətə başlamışdır. Kursun əsas vəzifəsi şagirdlərin dünyagörüşünü inkişaf etdirmək, onlara elmin əsaslarını öyrətmək, ölkəmizin inkişafı naminə fədakarlıqla çalışan vətəndaşlar tərbiyə etməkdən ibarətdir. Kurs öz fəaliyyətində "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş prinsipləri əsas götürür. Kurs təlim-tərbiyə prosesinin təşkilini, tədris materiallarının keyfiyyətlə mənimsənilməsini, şagirdlərin qabiliyyətlərinin inkişaf etdirilməsini əsas fəaliyyət istiqaməti kimi müəyyən etmişdir. Hazırda bu kurslarda abituriyent hazırlığı, müxtəlif xarici dil (ingilis, rus, alman, fransız), zəka, məktəbəqədər hazırlıq, ibtidai sinif hazırlığı, məntiq kursları, "İstedad kids", mental aritmetika, magistratura hazırlığı və digər sahələr üzrə müasir tədris metoduna uyğun təhsil imkanları yaradılmışdır. Müəssisədə tədris, Azərbaycan Respublikası Təhsil Nazirliyinin və Dövlət İmtahan Mərkəzinin proqramlarına əsasən, həmin qurumların dərs vəsaitləri və test toplularından istifadə etməklə həyata keçirilir. Ali məktəblərə qəbul olmaq istəyən abituriyentlər üçün qrup və fərdi şəkildə dərslər təşkil olunur ki, burada iştirak edən dinləyicilərə seçdikləri ixtisas bloklarına uyğun olaraq testologiya prinsipləri nəzərə alınmaqla mövzular dərindən öyrədilir. Dərs müddətində dinləyicilərin çətinlik çəkdiyi mövzular üzrə əlavə dərslər də keçilir.

Yay mövsümü zamanı kursun tədris planında hər hansı dəyişikliklər olurmu? – sualımızı cavablandıran Şirin müəllim bildirdi ki, kursda tədris proqramına uyğun olaraq yay məktəbləri təşkil olunur ki, həm şagirdlərə yeni biliklər aşılanır, asudə vaxtları səmərəli təşkil olunur, həm də zəka təlimlərinə və fənlərə dair bilik yarışlarına geniş yer ayrılır. Müsahibimiz vurğulayır ki, tədris prosesində müasir texnologiyalardan istifadə məqsədilə sinif otaqlarında elektron lövhələr də qurulmuşdur. Pedaqoji kollektiv üzvləri öz fəaliyyətlərində müasir dərsə verilən tələbləri daim diqqət mərkəzində saxlayır, şagirdlərin dünyagörüşünü inkişaf etdirən, bilikləri sərbəst əldə etmək vərdişləri yaradan, axtarışlara istiqamətləndirən fəal təlim metodlarından, qeyri-ənənəvi tədris forma və üsullarından geniş istifadə edirlər. Kursda yüksəkixtisaslı, öz işini sevən, daim yaradıcı fəaliyyət göstərən peşəkar müəllim kollektivi fəaliyyət göstərir ki, bu da kursun ilbəil daha böyük uğurlar qazanmasına yol açır. Kursda təhsil alan şagirdlərimizin bilik və bacarıqlarının öyrənilməsi, inkişaf etdirilməsi, testologiya vərdişlərinin mənimsənilməsi üçün aylıq sınaq imtahanları təşkil edilir. Bu sınaq imtahanları 5-11-ci sinifləri əhatə edir. Sınaq imtahanlarının nəticələri onlayn şəkildə hər bir şagirdə fərdi iş nömrəsi vasitəsilə çatdırılır. Sınaq-test imtahanlarının keçirilməsi zamanı qəbul edilən bütün yeniliklər operativ olaraq tətbiq olunur.

Kurslar fəaliyyətə başladığı 2014-2015-ci tədris ilindən etibarən qəbul nəticələri 99 və 100 faiz olub. Kursun 9 illik fəaliyyəti dövründə dinləyicilərdən 12 nəfər Prezident təqaüdünə layiq görülüb. Həmçinin 101 məzun 600 baldan yuxarı, 350 məzun 500 baldan yuxarı, 610 məzun 400 baldan yuxarı nəticə göstərib. Hazırda yüksək nəticə göstərərək qabaqcıl ali təhsil müəssisələrində oxuyanlar kurs tərəfindən aylıq tələbə təqaüdü ilə də təmin olunurlar.

Həmsöhbətim qeyd etdi ki, kursda müasir təhsil strategiyasında təfəkkür yönümlü metodun üstünlüyünü nəzərə alaraq "Zəka təlimləri"nin tədrisi üçün imkanlar yaradılmışdır: – Burada şagirdlərimizə şahmat oyunu və onun sirləri, məntiqi dünyagörüşünün formalaşdırılması, beyin yarımkürələrinin paralel inkişafı, sürətli və dəqiq şəkildə hesablama bacarıqları, sürətli oxuma, qavrama fəaliyyətinin gücləndirilməsi, özünəinamın artırılması, təfəkkürün inkişafı kimi proqramlar öyrədilir. Bu proqramlar, əsasən, 3, 5, 6 ay ərzində fəaliyyət göstərir və 5-14 yaş aralığındakı uşaqlar iştirak edə bilər. Kursda, eyni zamanda xarici dillər üzrə hazırlıqlar da təşkil olunur ki, burada həm xarici dillər üzrə qrammatik biliklər öyrədilir, həm də danışıq qrupları fəaliyyət göstərir. Xarici dillər üzrə qruplar 4 əsas bacarığın – danışıq, dinləmə, yazma və oxumanın inkişafına yönəldilib. Proqram seçilərkən tələbənin başlanğıc bilik səviyyəsi, sərbəst vaxtı və dili öyrənməkdə məqsədi nəzərə alınır. Dərslər tələbənin seçiminə əsasən fərdi və kiçik qruplar şəklində də keçilir.

Naxçıvanda ilk dəfə olaraq 4-10 yaş qrupu üzrə 10 ay müddətində dinləmə və izləmə ağırlıqlı ingilis və rus dilləri tədrisinin qeydiyyatı da məhz "İstedad" kurslarında aparılır. "İstedad kids"i digər ənənəvi kurslardan fərqləndirən başlıca xüsusiyyətlər, dərslərin hər bir mövzuya uyğun olaraq audio və videovəsaitlər, interaktiv oyunlar, yerli ekskursiyalar, ingilis və rus dillərində səhnəciklər vasitəsilə tədris edilməsidir ki, bu da uşaqların xarici dilləri öz ana dili kimi öyrənməsinə geniş imkanlar yaradır. Dərslər Cambridge Universitetinin "Kids preschool" proqramını tədris etmiş və beynəlxalq sertifikatlara malik peşəkar müəllimlər tərəfindən aparılır.

Şirin müəllim sonda kursa qeydiyyat prosesindən də bəhs edərək dedi ki, qeydiyyat zamanı hər bir şagirdə xas psixoloji və zehni sorğular tərtib edilir və yalnız bu sorğudan keçmiş şagirdlər kursda təhsil almaq imkanından yararlanır.

*İstedad kursları fəaliyyətə başladığı dövrdən müasir təlim modeli və tədris üsulunu əsas tutmaqla, yüksək intellektə malik bacarıqlı müəllim heyəti ilə Azərbaycan təhsilinə töhfələr verməyə çalışır. Biz də kursun heyətinə yeni tədris ilində yeni nailiyyətlər arzulayırıq.*

✍ **Süreyya QƏDİMƏLİYEVA**

# Liv Bona Dea Hospitalının Naxçıvanda ikinci humanitar aksiyası başa çatıb

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi və Bakı şəhərində fəaliyyət göstərən Liv Bona Dea Hospitalının birgə təşkilatçılığı ilə hospitalın mütəxəssis həkimləri Naxçıvan Sağlamlıq Mərkəzində ödənişsiz tibbi aksiya keçirib. Həmin aksiyada iştirak edən həkim və sakinlərlə həmsöhbət olduq.*



Bildirək ki, bu aksiyada Liv Bona Dea Hospitalının Bakıdakı xəstəxanasının həkimləri ilə bərabər İstanbul şəhərində fəaliyyət göstərən LİV xəstəxanasının da həkimləri iştirak edib. Aksiya zamanı LİV Hospitalın Xarici xəstələr şöbəsinin müdiri **Batuhan Aydın** və xəstəxananın Orqan nəqli şöbəsinin müdiri **Hasan Taşçı** ilə həmsöhbət olduq. Batuhan Aydın bildirdi ki, LİV -in İstanbulda, Türkiyənin digər şəhərlərində, həmçinin Bakı şəhərində xəstəxanaları fəaliyyət göstərir. Həmin səhiyyə müəssisələrində 198 ölkədən xəstə qəbulu həyata keçirilir. Xəstəxanalara müxtəlif dilləri bilən mütəxəssislər cəlb edilib ki, bu da xarici ölkələrdən bu xəstəxanalara üz tutan insanların işini asanlaşdırır. Naxçıvan kimi gözəl bir yerə gəlib burada da insanlara həm öz xəstəxanamızın imkanlarını tanıtmaq, həm də buradakı soydaşlarımızın sağlamlığı üçün nə isə etmək istədik. İstəyimizi qəbul etdikləri üçün çox məmnunuq.

LİV Hospitalın professoru Hasan Taşçı qeyd etdi ki, bu onun Naxçıvana ilk gəlişidir. Təyyarədən enən kimi şəhəri görəndə buranı Anadoluya bənzədib: "Ərzurum da eynən bura kimidir. Ərzurum da dağların əhatəsində yerləşir, Naxçıvan da. Səhiyyə ocağını gəzdik, çox gözəl xəstəxanadır. Müayinə, KT, MRT və digər müayinə kabinələri müasir səviyyədədir". Professor onu da bildirdi ki, bəzən ehtiyac olduqda hospitalın müxtəlif yerlərdə yerləşən xəstəxanalarına gedir. Həmçinin Liv Bona Deaya – Bakıya da gəlir və orada xəstə müayinəsi və əməliyyatlar həyata keçirir.

Liv Bona Dea Hospitalın direktorunun müalicə işləri üzrə müavini, baş həkim, uzman kardioloq, ürək-damar cərrahı **Cabir Gülmalıyev**lə söhbətimizdə bildirdi ki, doğma yurdu Naxçıvanda və buradakı Naxçıvan Sağlamlıq Mərkəzində olmaqdan və insanlara səhiyyə xidməti göstərməkdən çox məmnundur. O dedi: "Buradakı xəstəxanalarda da bir çox ürək əməliyyatları aparılır. Buraya gəlməyimizdə məqsəd sakinlərimizin tibbi xidmətə əlçatanlığını təmin etməkdir. Bakıda və burada işlədiyim vaxtlarda əməliyyat etdiyim xəstələrdən bir neçəsi bu gün müayinə üçün gəlmişdi. Müayinə etdim, məsləhətlər verdim".

Hospitalın onkoloq həkimi ***Elxan Məmmədov*** dedi ki, o, təhsini İstanbul Tibb Universitetində alıb. Uzman həkim kimi Vətənə qayıdıb. Naxçıvana ilk dəfədir, gəlir: "Çox gözəl bir məkanla qarşılaşdıq. Həm havası gözəl, həm də insanları çox səmimidir", – deyən həkim onu da vurğuladı ki, səhiyyə ocağı ilə yaxından tanış olub. Xəstələri müayinə edib, lazımi göstərişlər verdiklərini bildirən həkim diqqətə çatdırdı ki, sağlamayan xəstəlik yoxdur, vacib olanı düzgün və vaxtında diaqnozun qoyulmasıdır.



Qeyd edək ki, bu aksiyada Naxçıvan Sağlamlıq Mərkəzinin tibb heyəti də sakinlərin müayinəsində iştirak edib. Onlardan həkim-oftalmoloq Qərənfil Məmmədova, həkim-cərrah Nazim İbrahimov, həkim-radioloq İsmayıl Quliyev, həkim-qastroenteroloq Cabir Hüseynov və digərləri ilə söhbət zamanı öyrəndik ki, həkim kollektivi yurdumuzun rayon və kəndlərində keçirilən bir çox aksiyalarda iştirak edir. Bu aksiyada da qonaq gələn həkimlər xəstələrə diaqnoz qoymaları üçün lazım olan müayinələrin aparılmasında əllərindən gələni ediblər.

Bu gün Azərbaycan həkimi tibbin bütün sahələrində öz sözünü deyir. Onlar öz peşəkar fəaliyyətləri ilə insanların sağlamlığının keşiyində dayanmaqla yanaşı, döyüş meydanında yüzlərlə igidi ölümdən xilas ediblər. Ağxalatlı peşə sahibləri gecə-gündüz, uzaq-yaxın demədən dövlətimizin ən qiymətli sərvəti olan vətəndaşlarımızın sağlamlığının qeydinə qalır, onlara təmənnasız tibbi yardım göstərirlər. Artıq ənənə halını alan humanitar aksiyalardan – bu xeyirxah, nəcib işdən muxtar respublikamızda yararlananların da sayı az deyil. Ulu Öndərin yüzillik yubileyi və Vətən müharibəsində qazanılan qələbənin üçilliyi ərəfəsində keçirilən humanitar tibbi aksiyada əhalinin sağlamlığının qorunmasında xidməti olan həkimlərimiz onlara göstərilən inamı doğruldurlar.

✍ **Ramiyyə ƏKBƏROVA**

## Məktəblərdə *"Diqqət, uşaqlar!"* layihəsi keçirilir

Naxçıvan Muxtar Respublikası Dövlət Yol Polisi İdarəsi "Diqqət, uşaqlar!" layihəsinə start verib. İdarənin əməkdaşları yeni tədris ilinin başlanması ilə əlaqədar olaraq məktəblərdə maarifləndirici tədbir keçirərək zəruri yol-nəqliyyat qaydalarını uşaqlara aşılayırlar.



Layihənin təşkilində məqsəd uşaq və yeniyetmələrin iştirakı ilə yol-nəqliyyat hadisələrinin qarşısının alınması istiqamətində profilaktiki tədbirlərin gücləndirilməsi, habelə ümumtəhsil məktəblərində şagirdlərə təhlükəsiz davranış vərdişlərinin aşılanmasıdır.

Naxçıvan Muxtar Respublikası Dövlət Yol Polisi İdarəsinin əməkdaşları məktəblərdə təşkil olunan görüşlərdə şagirdlərə yol hərəkəti qaydaları, həmçinin piyada və nəqliyyat işıqforları, nizamlanan və nizamlanmayan piyada keçidlərindən keçmək qaydaları və yol nişanları barədə ətraflı məlumat verirlər.

Həmçinin görüşlər zamanı məktəblilərin təklifləri dinlənilir və sualları cavablandırılır.

**Xəbərlər şöbəsi**

## Elan

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi Naxçıvan Müəllimlər İnstitutu aşağıdakı kafedralarda boş olan kafedra müdiri vəzifəsini tutmaq üçün müsabiqə elan edir:

*1. Humanitar və ictimai fənlər*

*2. İncəsənət*

Kafedra müdiri vəzifəsini tutmaq üçün müsabiqədə Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasının 2017-ci il 15 noyabr tarixli 5/5 saylı Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları"nın tələblərinə cavab verən şəxslər iştirak edə bilərlər.

Sənədlər bu elan qəzetdə dərc edildiyi gündən bir ay müddətində qəbul edilir. Müsabiqədə iştirak etmək istəyənlər sənədlərini müvafiq "Qaydaları"ın tələblərinə uyğun şəkildə rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana şəxsən təqdim edə və ya göndərə bilərlər.

***Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 2, Naxçıvan Müəllimlər İnstitutu, Rektorluq***

***İtmişdir***

Ordubad rayonunun Gənzə kəndində yaşayan Məmmədov Siyavuş Abbas oğlunun adına olan 69 BC 578 dövlət qeydiyyat nömrəli "Niva" markalı avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
**Baş redaktor:**
MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *info@serqqapisi.gov.az*

Qeydiyyat №: 575
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

www.serqqapisi.gov.az

*Nömrəyə məsul:* Muxtar Məmmədov
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
Tiraj: 1000. Sifariş № 587